# Q Ə R A R

**<u>İş № 1(103)-622</u>**

Bakı Apellyasiya Məhkəməsinin cinayət kollegiyası;
Hakimlər Sahibxan Arzuman oğlu Mirzəyevin sədrliyilə,
Faiq Adil oğlu Qasımov və Camal Cumar oğlu Ramazanovdan ibarət tərkibdə,
Məhkəmə iclas katibi-Yusifov Rövşən Şahin oğlu,
Dövlət ittihamçısı-Azərbaycan Respublikası Baş Prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə idarənin Apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamını müdafiəsi üzrə şöbəsinin prokuroru, ədliyyə müşaviri Mustafayev Məhərrəm İsa oğlu iştirakları ilə

**12 avqust 2010-cu il tarixdə** **Bakı şəhərində**

08.09.1981-ci ildə Sumqayıt şəhərində anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, orta təhsilli, ailəli, Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin 30.10.2008-ci il tarixli hökmü ilə Azərbaycan Respublikası CM-nin 177.2.1, 177.2.2, 177.2.3, 177.2.4, 181.3.1, 29,186.2.1, 29.186.2.2 və 228.2.1-ci maddələri ilə təqsirli bilinib 13 il 7 ay 28 gün müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, Sumqayıt şəhəri, 16-cı Kotec, ev 28-də yaşamış, hazırda həbsdə olan Qahir Mirəli oğlu Zəkiyev haqqındakı

Bakı şəhəri, Nizami Rayon Məhkəməsinin 19 may 2010-cu il tarixli hökmündən məhkum Q.Zəkiyev tərəfindən verilmiş apellyasiya şikayətinə Bakı Apellyasiya Məhkəməsinin binasında açıq məhkəmə iclasında baxaraq

## M Ü Ə Y Y Ə N  E T D İ:

Bakı şəhəri, Nizami Rayon Məhkəməsinin 19 may 2010-ci il tarixli hökmü ilə(sədrlik edən A.İ.İsmayılov) Zəkiyev Qahir Mirəli oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 317-2.1-ci maddəsi ilə təqsirli bilinib 06(altı) ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, CM-nin 67.1-ci maddəsinə əsasən Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin 30.10.2008-ci il tarixli hökmü ilə ona təyin edilmiş cəzanın çəkilməmiş 12(on iki) il 01(bir) ay 09(doqquz) gün hissəsi hazırki hökmlə təyin edilmiş cəzaya qismən birləşdirilmiş və o, qəti olaraq cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 12 (on iki) il 06(altı) ay müddətə azadlıqdan məhrum etmə cəzası təyin edilmişdir.

Məhkəmənin hökmünə əsasən Zəkiyev Qahir Mirəli oğlu təqsirli bilinib məhkum edilmişdir ondan ötrü ki, o, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətin 1 №-li CÇM-də cəza çəkərkən, Azərbaycan Respublikası Ədliyyə Nazirinin

24.03.2004-cü il tarixli, 13-T №-li əmri əsasında “Cəzaçəkmə Müəssisələrinin Daxili İntizam Qaydaları” ilə məhkumlara saxlanılması qadağan olunmuş əşya olan 1 ədəd “Samsunq SGH-C-270” markalı “352080/03/590742/3” imei kodlu mobil telefonu istintaqa məlum olmayan mənbədən qanunsuz əldə edərək özündə saxlamış, daşımış, istifadə etmiş və 20.11.2009-cu il tarixdə saat 19:25 radələrində Penitensiar Xidmətin 1 №-li CÇM-nin əməkdaşları tərəfindən üzərinə keçirilən baxış zamanı kənara atdığı həmin qadağan edilmiş əşya aşkar edilərək götürülmüşdür.

Hökmdən məhkum Q.Zəkiyev apellyasiya şikayəti verib, cəzasının ağır olduğunu nəzərə alaraq hökmün dəyişdirilməsini və cəzasının yüngülləşdirilməsini xahiş etmişdir.

Apellyasiya şikayətində məhkum əməlinin hüquqi tövsifini mübahisələndirməmişdir.

Bakı Apellyasiya Məhkəməsinin cinayət kollegiyası cinayət işinin materiallarını öyrənib, apellyasiya şikayətinin dəlillərini müzakirə edərək, apellyasiya şikayətinin təmin edilməsi barədə məhkumun, həmçinin apellyasiya şikayətinin təmin edilməməsi barədə dövlət ittihamçısının çıxışlarını dinləyərək hesab edir ki, aşağıdakı əsaslara görə Bakı şəhəri, Nizami Rayon Məhkəməsinin 19 may 2010-cu il tarixli hökmü dəyişdirilmədən, apellyasiya şikayəti isə təmin edilmədən saxlanılmalıdır.

Məhkum Q.Zəkiyevin törətdiyi cinayət əməli onun özünün ibtidai istintaq və birinci instansiya məhkəməsində verdiyi etirafedici ifadələrlə yanaşı, şahidlər T.Cəfərov, C.Cavadov və digərlərinin ifadələri, ekspert rəyləri, maddi sübutlar və cinayət işinin digər materialları ilə kifayət qədər sübuta yetirilmişdir.

Birinci instansiya məhkəməsində olduğu kimi apellyasiya baxışı zamanı da məhkum Q.Zəkiyev bildirdi ki, o, həqiqətən cəzaçəkmə müəssisəsində üzərində telefon saxlamış və gəzdirmişdir, sadəcə həmin telefonla yaxınları ilə əlaqə saxlamasını cinayət hesab etmir, ona görə də özünü təqsirli bilmir, o, silah saxlamağı və gəzdirməyi cinayət hesab edir ki, buna görə də məhkum edilmişdir.

Məhkəmə kolleygiyası hesab edir ki, qanuni üsullarla toplanmış sübutları tam, hərtərəfli və obyektiv araşdıran birinci instansiya məhkəməsi bu sübutlar əsasında işin faktiki hallarına uyğun olan qanuni və əsaslı nəticəyə gəlmiş və məhkum Q.Zəkiyevin əməlini Azərbaycan Respublikası CM-nin 317-2.1-ci maddələri ilə düzgün tövsif etmişdir.

Hökmdən görünür ki, birinci instansiya məhkəməsi məhkum Q.Zəkiyev barəsində təyin edərkən, cəza təyin edilməsinin ümumi əsaslarını nəzərdə tutan Azərbaycan Respublikası CM-nin 58-ci maddəsinin tələblərinə əməl edərək, törədilmiş cinayətin ağırlığını, ictimai təhlükəlilik dərəcəsini, xarakterini, onun şəxsiyyətini nəzərə almış, habelə onun cəzasının ağırlaşdıran və yüngülləşdirən halları müzakirə etmiş, əməlində cəzasını yüngülləşdirən hal müəyyən etməmiş, əvvəllər qəsdən törətdiyi cinayətlərə görə məhkumluğunun ödənilməməsinin cinayətlərin residivini yaratmasını isə CM-nin 18 və 61-ci maddələrinə əsasən cəzasını ağırlaşdıran hal kimi nəzərə almış və residivə görə ona cəza təqsirldi bilindiyi əməlin sanksiyasına uyğun təyin edilib, yekunda hökmlərin məcmusu üzrə qəti cəza təyin edilmişdir.

Məhkəmə kollegiyası məhkum Q.Zəkiyevə təyin edilmiş cəzanı onun əməlinə və şəxsiyyətinə uyğun qanuni və ədalətli hesab edir.

Qeyd edilənləri nəzərə alaraq məhkəmə kollegiyası hesab edir ki, məhkəmənin hökmü qanuni və əsaslı olduğundan qüvvəsində saxlanılmalı, apellyasiya şikayəti isə təmin edilməməlidir.

Bakı Apellyasiya Məhkəməsinin cinayət və inzibati xətalara dair işlər üzrə kollegiyası şərh olunanları və Azərbaycan Respublikası CPM-nin 397.1, 397.2, 398.1.1-ci maddələrini rəhbər tutaraq

**Q Ə R A R A   A L D I:**

Bakı şəhəri, Nizami Rayon Məhkəməsinin Zəkiyev Qahir Mirəli oğlu haqqındakı 19 may 2010-cu il tarixli hökmü dəyişdirilmədən, apellyasiya şikayəti təmin olunmadan saxlanılsın.

Qərardan Azərbaycan Respublikası CPM-nin 410-cu maddəsinin tələblərinə müvafiq qaydada Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti və ya protesti verilə bilər.